1 - 3_Layout 1 13.02.2020 12:40 Page 1

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 3 (569)
15 fevral
2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

Tarixin ən güclü Azərbaycanını yaradan siyasət

Prezident İlham Əliyev: "Əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir"

"Azərbaycan" qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu "Tarixin ən güclü Azərbaycanını yaradan siyasət" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.

2019-cu il ölkəmiz üçün iqtisadi sahədə müsbət göstəricilərlə yadda qaldı. 2016-cı ildən başlanan yeni iqtisadi islahatların nəticələri özünü ötən il daha geniş miqyasda göstərdi. Prezident İlham Əliyev tərəfindən irəli sürülən təşəbbüslər, qeyri-neft sektorunun inkişafını sürətləndirən islahatlar iqtisadiyyatda nailiyyətlərin əldə olunmasını, makroiqtisadi sabitliyin möhkəmləndirilməsini və tarazlı iqtisadi inkişafı təmin etdi.

Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinə həsr olunan konfransda bu barədə geniş bəhs edildi. Amma öncə onu qeyd edək ki, konfrans dördüncü dövlət proqramının birinci ilinin yekunları ilə bağlı olsa da, əslində, son 16 ilin sosial-iqtisadi inkişafının hesabatı verildi.

Bu gün zaman göstərir ki, İlham Əliyev 2004-cü ildən başlayaraq dövlət proqramlarını təsdiq etməklə çox böyük uzaqgörənlik edib. Çünki onların nəticəsində Azərbaycanın imkanlarından səmərəli istifadə olunub, bütün iqtisadi potensial hərəkətə gətirilib ki, bunun da uğurlu nəticələri göz önündədir.

Onu da qeyd edək ki Prezidentin bölgələrə mütəmadi səfərləri və bu səfərlərin nəticəsi olaraq imzaladığı sərəncamlar dövlət proqramlarının icrasını sürətləndirməklə, regionların tarazlı inkişafının təmin edilməsi, infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində görülən işlərə təkan verib.

Prezident İlham Əliyevin müşavirədə səsləndirdiyi rəqəmlər və faktlar tarixin ən güclü Azərbaycanının aydın mənzərəsini yaradır. Beləliklə, 16 ildə Azərbaycanda baş verən iqtisadi dəyişikliklərə nəzər salaq. Bu dövrdə ölkə iqtisadiyyatı 3,4 dəfə artıb ki, bu da dünyada rekord göstəricidir. O cümlədən:

- sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə artıb;
- valyuta ehtiyatlarımız 27 dəfə artaraq 52 milyard dollara çatıb;
- Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verilib;
- Bakı-Tbilisi-Qars dəmir yolu tikilib;
- "Cənub qaz dəhlizi" çəkilib;
- Xəzərdə ən böyük liman olan Ələt Beynəlxalq Dəniz Limanı salınıb;
- 6-sı beynəlxalq olmaqla, 7 aeroport tikilib;
- Oğuz-Qəbələ-Bakı su kəməri çəkilib;
- orbitə 3 peyk çıxarılıb;
- 33 elektrik stansiyası tikilib, 3 min meqavat yeni generasiya gücü yaradılıb;
- qazlaşdırmanın səviyyəsi 51 faizdən 96 faizə çatıb;
- 16 min 700 kilometr avtomobil yolu tikilib;
- yoxsulluq 50 faizdən 4,8 faizə düşüb;
- Taxtakörpü və Şəmkirçay su anbarları tikilib;
- 1500-dən çox artezian quyusu qazılıb;
- orta əməkhaqqı 11 dəfə, pensiyalar 8 dəfə artıb;
- 300 mindən çox məcburi köçkünə, 6700 şəhid ailəsinə evlər, mənzillər verilib.

Beləliklə, dördüncü dövlət proqramının birinci ili də daxil olmaqla əldə olunan uğurlar, həyata keçirilən əzəmətli layihələr Azərbaycan dövlətinin və xalqının çox qısa dövr ərzində nail olduğu misilsiz, möhtəşəm və tarixi nailiyyətlər, milli yüksəliş salnaməsinin nümunələridir. "Bu layihələrin aparıcı qüvvəsi, təşəbbüskarı, təşkilatçısı, əsas maliyyə yükünü öz üzərinə götürən ölkə bizik - Azərbaycandır və bunu etmişik. Bu layihələrin hər biri tarixi əhəmiyyət daşıyır. Bu layihələrin, ümumiyyətlə, görülən işlərin hamısı Azərbaycan xalqı qarşısında böyük xidmətlərdir. Çıxışımın əvvəlində dediyim kimi, uğurlu inkişafımızı, sabitliyi şərtləndirən, cəmiyyətdə xoş əhval-ruhiyyəni formalaşdıran bizim siyasətimiz və addımlarımızdır. Nəyi demişiksə, onu da etmişik. Bir dənə də icra edilməmiş vəd yoxdur. Heç kim bunu tapa bilməz. 2003-cü ildə və ondan sonrakı illərdə nəyi demişəmsə, onu da etmişəm. Ona görə bizim sözümüzə də, işimizə də xalq tərəfindən böyük inam var. Mən həmişə demişəm ki, bizim sözümüzün qüvvəti imzamız qədər olmalıdır və bu gün bu, belədir" - konfransda İlham Əliyev bu barədə danışarkən bildirib.

Azərbaycan üçün xarakterik olan beynəlxalq uğurlardan biri qlobal kataklizmlərin daha da dərinləşdiyi həssas dönəmlərdə belə öz yolu ilə inamla addımlamasıdır. Bunun da əsas səbəblərindən biri dövlət proqramlarının icrası nəticəsində yaradılmış iqtisadi potensialdır.

Bu siyasət 2019-cu ildə respublikamızda iqtisadiyyatın bütün sahələrində müsbət nəticələrin qazanılmasını təmin etdi. Ona görə dövlət proqramının ilk ili də kifayət qədər mühüm göstəricilərlə zəngindir. Dövlət başçısının qeyd etdiyi kimi, proqram artıqlaması ilə icra edilib, nəzərdə tutulmuş məsələlər həll olunub. Belə ki, ötən il Azərbaycanda iqtisadiyyat 2,2 faiz, qeyri-neft sektoru 3,5 faiz, qeyri-neft sənayesi 14 faizdən çox artıb. Ötən il 98 min yeni iş yerinin yaradılması da qeyri-neft sənayesində baş verən artımın məntiqi nəticəsidir. Bu da onu göstərir ki, ölkədə həyata keçirilən yeni iqtisadi islahatlar öz bəhrəsini verir.

Ötən il inflyasiyanın cəmi 2,5 faiz təşkil etməsi də iqtisadiyyatda gedən pozitiv proseslərin nəticəsidir. Əhalinin gəlirlərində isə 7,4 faizlik artım var ki, bu da inflyasiyanın 3 dəfəyə qədər üstələnməsi deməkdir.

Digər infrastruktur sahələrinə gəldikdə 2019-cu ildə ölkədə əlavə 800 meqavat elektrik enerjisi əldə olunub, 1300 kilometr avtomobil yolu salınıb, 80 min hektar torpağa su verilməsi təmin edilib, 300-dən çox subartezian quyusu qazılıb. Ötən ilin yaddaqalan mühüm iqtisadi hadisələrindən biri də valyuta ehtiyatlarımızın 6,4 milyard dollar artmasıdır.

Bu gün dünyanın siyasi-iqtisadi reallıqları kifayət qədər təzadlı, neqativ hadisələrlə doludur. O cümlədən Azərbaycana yaxın coğrafiyalarda da hərbi-siyasi proseslər baş verməkdədir. Amma mürəkkəb qlobal proseslər fonunda Azərbaycan iqtisadiyyatında inkişaf və makroiqtisadi sabitlik davam edib. Qeyri-neft sektorunun iqtisadi artımın əsas mənbələrindən birinə çevrilməsi istiqamətində keçirilən islahatlar yeni nəticələr verib, investisiya fəallığı yüksək səviyyədə qalıb. Bu baxımdan əvvəlki illərdə olduğu kimi, ötən il də respublikamızda sosial-iqtisadi inkişafın davamlı olması, əhalinin rifah halının daha da yaxşılaşdırılması, ölkənin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə yüksəldilməsi, milli və dövlətçilik maraqlarının təmin olunması baxımından mühüm mərhələ oldu.

Əldə olunan hər bir müsbət nəticə isə dördüncü dövlət proqramında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsindən xəbər verir. Qazanılan hər bir uğur isə növbəti hədəflərə çatmaq üçün etibarlı bünövrədir.

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Fevralın 7-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Almaniya Federativ Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniqi qəbul edib.

Azərbaycan Respublikasının Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 8-də DİN-in Əlahiddə Çevik Polis Alayında müasir və rahat, həmçinin, daha keyfiyyətli materialdan olan yeni geyim formasının tətbiqi ilə əlaqədar Alayın şəxsi heyətinin sıra baxışını keçirib.

2_Layout 1 13.02.2020 12:43 Page 1

Daxili Qoşunlarda xidmətə yeni qəbul edilmiş əsgərlər hərbi andı qəbul ediblər

Fevralın 12-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş əsgərlərin andiçmə mərasimi keçirilib.

Mərasimdə Daxili Qoşunlar komandanının 1-ci müavini - Qərargah rəisi general-mayor Tofiq Hüseynov, Veteranlar şurasının üzvləri və əsgər valideynləri iştirak ediblər.

Tədbir Milli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi Göstərici Hərbi Orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Hərbi hissə komandirinin vəzifələrini müvəqqəti icra edən polkovnik-leytenant Telman Həsənov çıxış edərək əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Gənc əsgərlər hərbi and içərək Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şəraflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Sonra Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbrik çatdırılıb.

Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları qeyd edilib. Məktubda, həmçinin, Daxili Qoşunların daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.

Təntənəli mərasimdə çıxış edənlər gənc əsgərlərə Vətənə, dövlətə və Silahlı Qüvvələrin Ali Baş Komandanına, hərbi anda sadiq olmalarını, nümunəvi, nizam-intizamlı xidmət etməyi, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş qabiliyyətlərini daim artırmalarını, komandir-rəis heyətinin əmr və tapşırıqlarını dəqiq və vaxtında yerinə yetirmələrini, işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda döyüşə hər an hazır olmalarını tövsiyə ediblər.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

baş leytenant Nigar Ağayeva

HƏRBİ HİSSƏDƏ "AÇIQ QAPI" GÜNÜ KEÇİRİLİB

Fevralın 2-də Daxili Qoşunların 12318 saylı hərbi hissəsində "Açıq qapı" günü keçirilib. Azərbaycan Gəncləri Gününə təsadüf edən görüşdə əsgər valideynləri iştirak ediblər. Hərbi hissənin komandiri polkovnik-leytenant Emil Rüstəmov tədbirə gələn valideynləri salamlayaraq, "Açıq qapı" gününün gənclərimiz üçün əlamətdar bir gündə keçirilməsinin xoş əhval-ruhiyyə yaratdığını vurğulayıb.

Polkovnik-leytenant E.Rüstəmov bildirib ki, Daxili Qoşunların bütün hərbi hissələrində olduğu kimi, 12318 saylı hərbi hissədə də şəxsi heyətin xidmət şəraiti və əhval-ruhiyyəsi yüksək səviyyədədir. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində hərbi hissələrimizin maddi-texniki təminatı müasir standartlara tam cavab verir, şəxsi heyətin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Valideynlərlə görüşlərin və belə tədbirlərin keçirilməsinin Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov və Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov tərəfindən xüsusi diqqət mərkəzində saxlanıldığını da qeyd edib.

Sonra valideynlər hərbi hissənin ərazisində şəhidlərin xatirəsinə yaradılmış abidəni ziyarət ediblər. Şəhidlərin xatirəsi anılıb. Onlara hərbi hissənin tibb məntəqəsi, əsgər yeməkxanası, hamam-camaşırxana kompleksi, şəxsi heyətin yerləşdiyi kazarmalar, habelə təlim şəhərcikləri göstərilib. Valideynlər əsgərlərin tibbi təminatı, qidalanması, hərbi paltarlarının təmizliyi, kazarmalarda daxili səliqə-sahmanın, istilik təchizatının, məişət ləvazimatlarının vəziyyəti ilə maraqlanıblar, bölmələrin komandirləri ilə söhbət ediblər.

Hərbi hissədə gördüklərindən məmnun qalan valideynlər övladlarına göstərilən qayğıya və xidmət üçün yaradılan hərtərəfli şəraitə görə öz minnətdarlıqlarını bildiriblər.

Sonda xatirə şəkli çəkdirilib.

12318 saylı hərbi hissənin ştatdankənar müxbir postu

BAKI ŞƏHƏRİNDƏ BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ MÜDAFİƏ AKADEMİYASI TƏRƏFİNDƏN TƏDRİS KURSU KEÇİRİLİB

Yanvar ayının 27-dən 31-nə kimi Bakı şəhərində "Hilton Baku" mehmanxanasında Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Müdafiə Akademiyasının nəzdində fəaliyyət göstərən Şrivenham İdarəetmə Mərkəzinin və Krenfild Universitetinin elmi heyəti tərəfindən "Müdafiənin geniş təhlükəsizlik kontekstində idarə edilməsi" mövzusunda tədris kursu keçirilib.

Gürcüstan Respublikasının müxtəlif qurumlarından 24 nəfər nümayəndə heyətinin iştirak etdiyi tədbirə Azərbaycan Respublikası Prezidenti Administrasiyası, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, Beynəlxalq Münasibətlərin Təhlil Mərkəzi və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının əməkdaşları qatılıblar. Tədris kursunda Daxili İşlər Nazirliyini Respublikası ilə Birləşmiş Krallıq arasında əməkdaşlıq münasibətlərinin dinamik inkişafından, Krallığın dünyadakı siyasi-iqtisadi mövqeyindən və "Müdafiənin geniş təhlükəsizlik kontekstində idarə edilməsi" mövzusunda tədris kursunun əhəmiyyətindən danışaraq, müəllim heyətinə və iştirakçılara uğurlar arzulayıblar.

Daxili Qoşunların komandanının köməkçisi polkovnik Rasim İsmayılov, Daxili Qoşunların Baş İdarəsinin Şəxsi heyət üzrə İdarəsində Beynəlxalq hərbi əməkdaşlıq şöbəsinin rəisi polkovnik-leytenant Yaşad Əliyev və Daxili İşlər Nazirliyinin Beynəlxalq əməkdaşlıq İdarəsinin inspektor-tərcüməçisi polis leytenantı Nihad Xəlilov təmsil ediblər.

Qeyd edək ki, kursun açılış mərasimində çıxış edən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab James Sharp və Birləşmiş Krallığın Azərbaycan, Gürcüstan, Ermənistan üzrə hərbi attaşesi polkovnik-leytenant Entoni Bramvel Azərbaycan Müdafiə Akademiyasının nəzdində fəaliyyət göstərən Şrivenham İdarəetmə Mərkəzinin hərbi qulluqçusu polkovnik-leytenant Darren Huges və Krenfild Universitetinin müəllimi professor Laura Cleary tərəfindən təhlükəsizlik, strateji kontekst, təhlükəsizlik və müdafiə sektorunun təşkili və idarə olunması, siyasətin formalaşdırılması və icra olunması, strategiya və strateji inkişaf, strateji əlaqələndirmə, mülki-hərbi əlaqələr, təhlükəsizlik sektorunda mülki və demokratik idarəetmə, dəyişikliklərin və risklərin idarə edilməsi mövzuları tədris olunub, mövzular üzrə ssenarili təlimlər təşkil edilib.

Həmçinin, BP şirkətinin Azərbaycan, Gürcüstan, Türkiyə regionunda xarici əlaqələr və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli tərəfindən Azərbaycan Respublikasının neft-qaz strategiyası, dünya neft şirkətləri ilə əməkdaşlığın indiki vəziyyəti, Avropa ölkələrinin enerji təhlükəsizliyinə Azərbaycanın verdiyi töhfələr, Cənubi Qafqaz, Qara dəniz və Cənubi Avropa regionları arasında neft-qaz marşrutları, dünya neft-qaz bazarının indiki vəziyyəti və gələcək perspektivləri barəsində geniş məlumatlar verilib.

Tədris kursunun son günü Birləşmiş Krallığın Azərbaycan, Gürcüstan və Ermənistan üzrə hərbi attaşesinin müavini mayor İyan Lerd tədbirə yekun vuraraq, kursun əhəmiyyətindən danışıb və bu kimi tədbirlərin Birləşmiş Krallıq ilə Azərbaycan Respublikası arasında əlaqələrin daha da inkişaf etdirilməsi baxımından vacib olduğunu vurğulayıb.

Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi

XÜSUSİ TƏYİNATLI DƏSTƏ QARŞIDA DURAN TAPŞIRIQLARIN İCRASINA HAZIRDIR

Daxili Qoşunlar komandanının 1-ci müavini – Qərargah rəisi tərəfindən təsdiq edilmiş müvafiq xidməti tapşırığa əsasən, yanvar ayının 21-dən 23-dək Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsinin döyüş hazırlığı və döyüş təliminin vəziyyəti yoxlanılıb. Bu barədə məlumat verən Daxili Qoşunların Baş İdarəsinin Qərargahında Əməliyyat və döyüş hazırlığı İdarəsinin Döyüş hazırlığı şöbəsində xüsusi təyinatlı bölmələrin hazırlığı üzrə baş zabit polkovnik-leytenant Tural Novruzov bildirib ki, yoxlama müddətində komandir heyətinin idarəetmə və liderlik qabiliyyəti, şəxsi heyətin atəş, fiziki və xüsusi taktiki hazırlığının səviyyəsi dərindən öyrənilib, fövqəladə hallar zamanı fəaliyyət planına uyğun olaraq xüsusi təyinatlı dəstəyə həvalə olunmuş tapşırıqların yerinə yetirilməsi üzrə qrup, yarımqrup komandirlərinin, həmçinin, şəxsi heyətin bilik və bacarığına əsas diqqət yetirilib.

Bundan başqa, xüsusi təlim atış çalışmalarının yerinə yetirilməsi ilə atıcılıq vərdişləri, eləcə də tirdə dartınma, maneələr zolağının dəf edilməsi və 5 km məsafəyə qaçış üzrə çalışmaların yerinə yetirilməsi ilə fiziki hazırlığın vəziyyəti, aidiyyəti normativlər üzrə taktiki hazırlıq, hərbi topoqrafiya, alpinizm, hərbi tibbi, texniki və mühəndis hazırlığından şəxsi heyətin praktiki bacarığı qiymətləndirilib.

Polkovnik-leytenant T.Novruzov onu da vurğulayıb ki, yoxlama zamanı təlim məqsədilə xüsusi təyinatlı dəstənin müvafiq həyəcan siqnalı ilə hazırlığı, çevikliyi, silahlanması, təchizatı, avtomobil və zirehli texnikaların hərəkət qabiliyyəti, əməliyyat aparılan yerə marşın icrası, komandir heyətinin qərar qəbuletmə bacarığı yoxlanılıb. Müəyyən olunub ki, dəstə qarşıda duran tapşırıqların icrasına hazırdır. Burada nizam-intizam, daxili qayda qorunub saxlanılır.

Bununla yanaşı, dəstənin silahlanmasında mövcud olan silah-sursat, müşahidə və optik cihazların vəziyyəti də yoxlanılarkən müəyyən olunub ki, silahlar sazdır, normal döyüş vəziyyətinə gətirilib, xüsusi nişangah və cihazlar təyinatına uyğun olaraq istifadə edilir, silahlara vaxtlı-vaxtında qulluq göstərilir.

Polkovnik-leytenant T.Novruzov dəstənin şəxsi heyətindən 8 nəfərin "Zoğalı beret" daşıyıcısı olduğunu, 7 nəfər hərbi qulluqçunun isə xüsusi hazırlıq kursu keçdiyini də söyləyib. O əlavə edib ki, yoxlama müddətində dəstənin şəxsi heyətinə "Topoqrafik xəritələr, növləri, istifadəsi və koordinat sistemləri", "Xüsusi əməliyyatlarda qrupun, yarımqrupun döyüş düzülüşləri" mövzusunda məşğələlər keçirilib. Məşğələlər zamanı xüsusi təyinatlı bölmələr üçün nəzərdə tutulmuş normativlərin yerinə yetirilməsi metodikaları da praktiki olaraq şəxsi heyətə izah edilib.

Sonda dəstənin zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə "Dövlətə və dövlətçiliyə sadiqlik, funksional vəzifə borclarının yerinə yetirilməsində hərbi qulluqçuların məsuliyyəti" mövzusunda söhbətlər aparılıb, komandir heyəti ilə yoxlamanın yekunlarına dair xidməti müşavirə keçirilib və aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün konkret tapşırıqlar və tövsiyələr verilib.

baş leytenant Xədicə Hacızadə

3_Layout 1 13.02.2020 12:46 Page 1

XX əsrin dəhşətli faciəsi - Xocalı soyqırımından 28 il keçir

Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırım cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl, Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Yalnız bunu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl – 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.

Xankəndidən 10 kilometr cənub-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında strateji məntəqədə yerləşən, Dağlıq Qarabağın yeganə hava limanının yerləşdiyi Xocalı fevralın ikinci yarısından başlayaraq, Ermənistan hərbi birləşmələri tərəfindən tam mühasirəyə götürülüb.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq, mühasirədəki Xocalı şəhərinin dinc əhalisinin üzərinə ağır hərbi texnika yeridib, onlara misli görünməmiş qəddarlıqla divan tutub, şəhər barbarcasına yerlə-yeksan edilib. Yalnız Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Bundan başqa, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi naməlumdur.

Ümummilli Lider Heydər Əliyev Xocalının o dövrdəki ölkə rəhbərliyi tərəfindən tamamilə müdafiəsiz buraxılmasına kəskin etiraz edərək deyib: "O zamankı iqtidarın Azərbaycanın milli müstəqilliyinə və xalqımıza qarşı xəyanətkar mövqeyi, öz konstitusion vəzifə borcuna cinayətkar laqeydliyi, ardı-arası kəsilməyən siyasi hakimiyyət oyunları, respublikada baş alıb gedən anarxiya və başıpozuqluq, ayrı-ayrı siyasətbazların məkrli şəxsi ambisiyaları bu tarixi faciənin törədilməsinə birbaşa şərait yaratmışdır. Uzun müddət dörd tərəfdən düşmən əhatəsində taleyin ümidinə buraxılmış vətəndaşlarımızın imdad dolu harayı qulaqardına vurulmuş, Xocalının xilas olunması üçün real imkanların mövcudluğuna baxmayaraq, günahsız əhali məqsədyönlü şəkildə bu milli qırğına sürüklənmişdir. Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır".

Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır.

Bəşəri cinayət olan Xocalı soyqırımının təşkilatçıları Ermənistan Respublikasının siyasi və dövlət rəhbərliyi, birbaşa icraçıları isə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətidir.

Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarına əsasən 26 fevral Xocalı Soyqırımı Günü elan edilib.

Ümummilli Lider Heydər Əliyev Xocalı soyqırımı haqqında deyib: "Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir".

Bununla əlaqədar Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlər ildən-ilə daha da genişlənir. Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 20-dən çox ştatının icra və qanunvericilik orqanı Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə hər il Xocalı soyqırımı genişmiqyaslı tədbirlərlə yad edilir. 2017-ci ildə Xocalı soyqırımının 25-ci ildönümü də Bakıda növbəti ümumxalq yürüşü ilə yad edilib. Yürüşdə "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!", "Xocalı - XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!" və s. çağırışlar və şüarlar nümayiş etdirilib.

president.az

VƏTƏN NAMİNƏ FƏDAKARLIQ HÖRMƏT VƏ EHTİRAMA LAYİQDİR

Daxili Qoşunların Zəngilanda döyüş yolu keçmiş veteranlarının görüşü olub

Fevralın 2-də Sumqayıt şəhərində Daxili Qoşunların Zəngilan rayonunda fəaliyyət göstərmiş və onun müdafiəsi uğrunda döyüş yolu keçmiş 16072 saylı hərbi hissəsinin veteranlarının görüşünə həsr olunan mərasim keçirilib. Mərasimdə Daxili Qoşunların Baş İdarəsində Şəxsi heyət üzrə İdarə rəisinin müavini - Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik-leytenant Şahin Bəylərov, Azərbaycan Respublikasının Milli Qəhrəmanı, istefada olan polis polkovniki Sahil Məmmədov, Daxili Qoşunların Veteranlar şurasının sədri Çingiz Daşdəmirov və digər qonaqlar iştirak ediblər. Tədbir iştirakçıları tərəfindən respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.

16072 saylı hərbi hissənin komandiri olmuş, uzun illər qoşunlarda xidmət etmiş Əkbər Hüseyev veteranları və qonaqları salamlayaraq, Daxili Qoşunların şəxsi heyətinin ağır müharibə sınaqlarından keçdiyini, döyüş meydanlarında qəhrəmanlıq nümunələri göstərdiyini bildirib. O, vaxtilə rəhbərlik etdiyi hərbi hissənin keçdiyi şərəfli döyüş yolundan danışıb, bu gün veteran adını daşıyan hissənin sabiq hərbi qulluqçularının Vətən naminə fədakarlığını qeyd edib. Veteranların illər keçsə də, bir-birilə yoldaşlıq münasibətlərini qoruyub saxladıqlarını, birlik nümayiş etdirdiklərini və ictimai həyatda layəqətli vətəndaşlıq mövqeləri ilə fərqləndiklərini təqdirəlayiq hal kimi vurğulayıb.

Daxili Qoşunların Baş İdarəsində Şəxsi heyət üzrə İdarə rəisinin müavini - Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik-leytenant Ş.Bəylərov Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədovun hərbi hissənin veteranlarına ünvanlanan məktubunu çatdırıb. Məktubda sözügedən hərbi hissənin Zəngilan rayonunun müdafiəsində fəal iştirak etdiyi, düşmənə sarsıdıcı zərbələr vurduğu, onlarla hərbi qulluqçunun şəhidlik zirvəsinə ucaldığı və yaralandığı qeyd olunub. "Azərbaycan Respublikasının Milli Qəhrəmanı" fəxri adına layiq görülmüş hərbi qulluqçularımızdan iki nəfərin-hazırda istefada olan polis polkovniki Sahil Məmmədovun və şəhid baş leytenant Rövşən Abdullayevin məhz Zəngilanın müdafiəsi uğrunda döyüşlərdə göstərdikləri cəsurluğa görə bu yüksək mükafatla təltif edildikləri də məktubda xüsusi vurğulanıb.

Daxili Qoşunların komandanı inandığını ifadə edib ki, veteranlar Milli Lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Vətən, dövlət və xalqımız naminə hər bir sınağa bundan sonra da hazır olacaq, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin veteranlara göstərdiyi böyük diqqət və qayğıdan ruhlanaraq, qoşunların şəxsi heyətinin, gənclərimizin vətənpərvərlik tərbiyəsi işində öz əməklərini əsirgəməyəcəklər.

Sonra Daxili Qoşunların Veteranlar şurasının sədri Çingiz Daşdəmirov, Milli Qəhrəman Sahil Məmmədov, veteran Səfxan Bayramov və digər qonaqlar mərasimdə çıxış edərək, Vətən naminə fədakarlığın hörmət və ehtirama layiq olduğunu, xalqımızın öz qeyrətli oğulları ilə qürur duyduğunu vurğulayıblar, veteranlara ürək sözlərini söyləyiblər.

Tədbir musiqiçilərin müşayiəti ilə davam etdirilib. Sonda xatirə şəkli çəkdirilib.

Mətbuat xidməti

KÖNÜLLÜLƏR VACİB İCTİMAİ MİSSİYANI YERİNƏ YETİRİRLƏR

2020-ci il ölkəmizdə "Könüllülər ili" elan olunub

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30.12.2019-cu il tarixli müvafiq sərəncamı ilə 2020-ci il ölkəmizdə "Könüllülər ili" elan olunub. Sərəncamda qeyd edilir ki, könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Beləliklə, "Könüllülər ili" çərçivəsində dövlət qurumlarının və ictimaiyyətin iştirakı ilə müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub. Respublikamızın ictimai-siyasi həyatında ilk dəfə elan olunan "Könüllülər ili" cəmiyyətimizdə ictimai həmrəyliyin möhkəmləndirilməsinə, quruculuq və islahatlar prosesində vətəndaş iştirakçılığının gücləndirilməsinə, ölkəmizin müsbət imicinin daha da artmasına öz töhfəsini verəcək.

1985-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının qəbul etdiyi müvafiq qətnaməyə əsasən, 5 dekabr Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur. Bu günün beynəlxalq ictimaiyyət tərəfindən qeyd olunması könüllülər hərəkatının dövlətlərin həyatında, qarşılıqlı münasibətlərində, müxtəlif mədəniyyət daşıyıcılarının dialoqunda, dünyada sülh təşəbbüslərinin təşviqində nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərir.

Dünya miqyasında könüllülük fəaliyyətini ifadə edən "volunter" termini geniş yayılıb. Bu termin latın dili mənşəli "voluntarius" sözündən törəmədir. Bir neçə əsr ərzində təşəkkül və inkişaf yolu keçmiş könüllülər hərəkatı Avropa qitəsindən öz təməlini

götürərək, sərhədləri aşıb, çoxşaxəli əməkdaşlıq platformasına çevrilib.

Beynəlxalq birlik tərəfindən könüllülər hərəkatı iqtisadi və sosial inkişaf məramına söykənən amil kimi nəzərdən keçirilir. Burada cəmiyyət həyatında hər bir vətəndaşın fəal ictimai mövqeyi, bilik, bacarıq, istedad və təcrübəsini reallaşdırması üçün imkanlar yaradılması əsas götürülür.

Könüllülər öz sərbəst vaxtını cəmiyyətin rifahına həsr edən şəxslərdir. Onların fəaliyyət sahələri geniş və müxtəlifdir. Bir çox ölkədə könüllülər ictimai yerlərdə səliqə-sahman yaradır, ekoloji layihələrin icrasına qoşulur, arxeoloji ekspedisiyalara qatılır, mədəni irsin tanıdılması üzrə təbliğat aparır, narkomaniya, alkoqolizm, siqaretçəkmə, heyvanlara qarşı qəddar rəftar əleyhinə kampaniyalar keçirir, sosial kampaniyalara aid plakat və broşurları yayır, yaşadıqları şəhərlərdə turistlər üçün ekskursiyalar təşkil edir, beynəlxalq idman yarışlarında təşkilati işlər görür, eləcə də qocalara və uşaq evlərində çalışan personallara, əlillərə köməklik göstərir, habelə təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasında yardımlarını əsirgəmirlər.

Könüllülük təmənnasız, əvəzində heç bir mükafat, qazanc məqsədi güdülməyən ictimai fəaliyyət növüdür. İnsanların könüllülər hərəkatına qoşulması onlara xeyirxahlıq keyfiyyətləri aşılayır və kollektivçilik vərdişləri formalaşdırır.

Dünya ölkələrində könüllü olmağa yalnız ictimai iş cəfakeşi nəzəri ilə yanaşmaq yetərli sayılmır. Belə ki, könüllü olan şəxs həyat yolunda gərəkli işgüzarlıq cəhətlərinə, xüsusi qabiliyyətlərə və informasiyalara yiyələnmək, şəxsi əlaqələr qurmaq baxımından da bu sahəyə qatılmaqla üstünlük qazanır. Bəzən könüllü fəaliyyət insanın peşə seçimində təkanverici rol oynayır. Burada öz bacarıqlarını realizə etmək, müxtəlif sahələrdə özünü sınamaq, fərdi təqdimat üçün şəffaf meydan var.

Siyasət, mədəniyyət və elm sahələrində özünü dünyaya tanıtmış bir sıra görkəmli şəxslərin bioqrafiyasında könüllülük fəaliyyəti ilə bağlı məqamlar var. Bu məqamlar həmin şəxslərin formalaşması və zirvəyə ucalmasına təsirsiz qalmayıb. Aydındır ki, könüllülük fəaliyyəti bir həyat məktəbidir.

Hər bir ölkənin könüllülər hərəkatının özünəməxsus ənənələri yaranıb və burada mentalitet, ictimai təşkilatlanma səviyyəsi, təhsil xüsusiyyətləri, mədəniyyət potensialı, vətəndaş fəallığı əsas çəkiyə malikdir.

Müasir Azərbaycan Respublikasında könüllülər hərəkatının təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. 1998-2000-ci illərdə BMT-nin Könüllülər Proqramı ilə birgə respublikamızda ilk dəfə xüsusi layihə həyata keçirilib. Həmin vaxtdan etibarən ölkəmizdə ilk könüllülər komandaları da yaradılıb. Milli Lider Heydər Əliyev gənclərimizin könüllülər hərəkatında iştirakını öz çıxışlarında yüksək qiymətləndirib. Onun gənclərə dəyərli nəsihətləri və tövsiyələri həmişə aktualdır, böyük tərbiyəvi əhəmiyyətə malikdir.

Ulu Öndər Heydər Əliyevin gənclər siyasətini uğurla davam etdirən Respublika Prezidenti cənab İlham Əliyevin təşəbbüsü əsasında və rəhbərliyi altında Azərbaycanda könüllülər hərəkatı daha da genişlənib, ona dövlət dəstəyi artıb, bu prosesdə gənclərin rolu kifayət dərəcədə güclənib. Dövlət başçısı könüllülər sırasındakı gənclərin fəaliyyətinin ölkəmiz üçün qürurverici olduğunu ictimaiyyətlə görüşlərində, kütləvi informasiya vasitələrinə müsahibələrində xüsusi vurğulayıb. Sözsüz ki, Respublika Prezidentinin könüllülər hərəkatına diqqət və qayğısı böyük stimulverici, ruhlandırıcı faktordur.

Azərbaycanda könüllülərin fəaliyyətinin uğurlu səhifələri az deyil və bu sahədə artıq müəyyən müsbət təcrübə də toplanıb. Belə ki, "Avroviziya" mahnı müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula - 1" yarışları, mədəniyyət festivalları, sammitlər və digər vacib tədbirlər zamanı könüllülərimiz fəal iştirak ediblər, onlara göstərilən etimadı doğruldublar.

Azərbaycanda 2009-cu ildə "Könüllü fəaliyyət haqqında" Qanun qəbul olunub. Bəzi dövlətlərdə heç bu sahə ilə bağlı qanunvericilik aktları mövcud deyil. Ölkəmiz bu məsələdə də bir çox dövlətə örnəkdir.

Könüllülərimizin böyük əksəriyyətini gənclər təşkil edir. Çoxminli könüllü ordusu Azərbaycan həqiqətlərinin carçısına çevrilib. Onu da qeyd etmək lazımdır ki, respublikamızda bir sıra dövlət qurumları və ictimai təşkilatların fəaliyyətlərində könüllülərin iştirakı prioritet məsələdir, habelə ictimaiyyətlə təmasların qurulmasında əvəzsiz köməkdir. Belə ki, Gənclər və İdman Nazirliyi, Dövlət Turizm Agentliyi, "ASAN xidmət", DOST, Azərbaycan Qızıl Aypara Cəmiyyəti, gənclər birlikləri, habelə digər qurumların fəaliyyətinə nəzər salsaq, bu sahələrdə könüllülər üzərinə düşən vəzifələri əzmkarlıqla yerinə yetirirlər.

Beləliklə, ölkəmizdə könüllülük işi çoxşaxəlidir, hər bir vətəndaşın, bütövlükdə ictimaiyyətin maraqlarına və tələbatlarına uyğundur.

İnanırıq ki, ölkəmizdə "Könüllülər ili" könüllülər hərəkatının yeni uğurlara imza atması, doğma Azərbaycanımızın inkişafı, xalqımızın birliyinin möhkəmləndirilməsi, cəmiyyətimizdə innovasiyaların, mütərəqqi layihələrin həyata keçirilməsi, gənc nəslin vətənpərvərlik ruhunun, vətəndaş məmnunluğunun yüksəldilməsi nöqteyi-nəzərdən yaddaqalan olacaqdır.

Yalçın Abbasov

4_Layout 1 13.02.2020 12:41 Page 1

İdman

DAXİLİ QOŞUNLARIN YIĞMA KOMANDASI YENƏ DƏ BİRİNCİDİR

Daxili İşlər Nazirliyinin müvafiq əmrinə əsasən, yanvar ayının 22-dən 24-dək Daxili İşlər orqan və hissələri arasında atıcılıq üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib. Daxili Qoşunların yığma komandası yarışda 7 idmançı və 1 nümayəndə ilə təmsil olunub.

Yarışın nəticələrinə əsasən, PM-1 və PM-5 tapşırıqlarının yerinə yetirilməsi üzrə Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin hərbi qulluqçusu çavuş Elşən Əlməmmədov 2-ci, 67987 saylı hərbi hissənin hərbi qulluqçusu baş leytenant Elşən İbadov isə 3-cü yerə layiq görülüb.

Bundan əlavə, qadınlar arasında PM-1 və PM-4 tapşırıqlarının yerinə yetirilməsi üzrə Ali Hərbi Məktəbin hərbi qulluqçusu baş çavuş Minat Gülümova 2-ci yeri qazanıb.

Ümumilikdə, Daxili Qoşunların yığma komandası yarışda rəqiblərini üstələyib və 761 xal toplayaraq 13 komanda arasında birinci yerə sahiblənib.

Keçirilən yarışlarda fərqlənən hərbi qulluqçular Daxili Qoşunlar komandanının 1-ci müavini - Qərargah rəisinin əmri ilə mükafatlandırılıblar.

DAXİLİ QOŞUNLARIN BİRİNCİLİYİ UĞRUNDA YARIŞLAR KEÇİRİLİB

Yanvarın 25-də 25031 saylı hərbi hissədə Daxili Qoşunların birinciliyi uğrunda ağırlıq çəki daşlarının qaldırılması və armrestlinq üzrə yarış keçirilib.

Yarışın təşkili və keçirilməsi üçün hakimlər kollegiyası aşağıdakı tərkibdə olub: baş hakim - polkovnik-leytenant Aydın Zahidov, katib - baş leytenant Vüsal Cahangirov, nəticələri müəyyən edən hakim - mayor Vüqar Mustafayev. Tibb xidməti polkovnik-leytenantı Urfan Mustafayev yarışın həkimi təyin edilib.

Ali Hərbi Məktəb, 99713, 67987, 25031, 16075 və 16076 saylı hərbi hissələrdən 6 komanda üzrə 42 nəfər hərbi qulluqçu yarışda iştirak edib.

Şəxsi və komanda birinciliyi uğrunda keçirilən yarışın nəticələri aşağıdakı kimi olub:

Ağırlıq çəki daşlarının qaldırılması üzrə

65 kq çəki dərəcəsində

I yer - çavuş Qüdrət Əzizov (16075 saylı hərbi hissə);
II yer - çavuş Anar Allahverdiyev (99713 saylı hərbi hissə);
III yer - əsgər Haqverdi Kərimov (25031 saylı hərbi hissə).

70 kq çəki dərəcəsində

I yer - baş çavuş Akif Müslümov (67987 saylı hərbi hissə);
II yer - baş çavuş Azər Muradov (99713 saylı hərbi hissə);
III yer - çavuş Nəsimi Əliyev (25031 saylı hərbi hissə).

75 kq çəki dərəcəsində

I yer - çavuş Əsgər Əhmədov (67987 saylı hərbi hissə);
II yer - çavuş Elvin Dövlətov (16076 saylı hərbi hissə);
III yer - kiçik çavuş Tural Əsgərov (99713 saylı hərbi hissə).

80 kq çəki dərəcəsində

I yer - kiçik çavuş Təbriz Məmmədov (16075 saylı hərbi hissə);
II yer - əsgər Xankişi Məhərrəmli (25031 saylı hərbi hissə).

85 kq çəki dərəcəsində

I yer - çavuş Ruslan Mürşüdov (99713 saylı hərbi hissə);
II yer - baş çavuş Elşən Novruzov (16075 saylı hərbi hissə);
III yer - kursant İsgəndər Alışov (Ali Hərbi Məktəb).

90 kq çəki dərəcəsində

I yer - çavuş Əli Bayramov (16075 saylı hərbi hissə);
II yer - əsgər Qoçəli Tərlanov (99713 saylı hərbi hissə).

+90 kq çəki dərəcəsində

I yer - əsgər Müşviq Hüseynov (16075 saylı hərbi hissə);
II yer - baş çavuş Amil Muradxanov (67987 saylı hərbi hissə).

Armrestlinq üzrə

65 kq çəki dərəcəsində

I yer - çavuş Anar Allahverdiyev (99713 saylı hərbi hissə);
II yer - kursant Asim Əhmədov (Ali Hərbi Məktəb);
III yer - əsgər Haqverdi Kərimov (25031 saylı hərbi hissə).

70 kq çəki dərəcəsində

I yer - əsgər İgid Ağasıyev (16076 saylı hərbi hissə);
II yer - baş çavuş Akif Müslümov (67987 saylı hərbi hissə);
III yer - çavuş Ruslan Əmrahlı (16075 saylı hərbi hissə).

75 kq çəki dərəcəsində

I yer - əsgər Cəlal Səfərov (99713 saylı hərbi hissə);
II yer - kiçik çavuş Tural Əsgərov (99713 saylı hərbi hissə);
III yer - kursant Əziz Qurbanov (Ali Hərbi Məktəb).

80 kq çəki dərəcəsində

I yer - kiçik çavuş Təbriz Məmmədov (16075 saylı hərbi hissə);
II yer - kursant Mehman Abbasov (Ali Hərbi Məktəb);
III yer - əsgər İlqar Məcidzadə (16076 saylı hərbi hissə).

85 kq çəki dərəcəsində

I yer - əsgər Rəşad Məmmədov (16075 saylı hərbi hissə);
II yer - baş çavuş Elşən Novruzov (16075 saylı hərbi hissə);
III yer - əsgər Təbriz Qasımov (16075 saylı hərbi hissə).

90 kq çəki dərəcəsində

I yer - əsgər Oruc Mustafayev (67987 saylı hərbi hissə);
II yer - çavuş Əli Bayramov (16075 saylı hərbi hissə);
III yer - əsgər Qoçəli Tərlanov (99713 saylı hərbi hissə).

+90 kq çəki dərəcəsində

I yer - gizir Ruslan Kübərov (67987 saylı hərbi hissə);
II yer - əsgər Müşviq Hüseynov (16075 saylı hərbi hissə);
III yer - baş çavuş Amil Muradxanov (67987 saylı hərbi hissə).

Komanda üzrə 16075 saylı hərbi hissə ilk pillədə qərarlaşmağı bacarıb. 99713 və 67987 saylı hərbi hissələr isə müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşüblər.

Mətbuat xidməti

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ ALİ HƏRBİ MƏKTƏBİNƏ 2020/2021-ci TƏDRİS İLİ ÜÇÜN TƏLƏBƏ QƏBULU QAYDALARI

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış sinfində oxuyan və ya tam orta təhsilli, qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları (yalnız oğlanlar) sırasından seçilirlər.

Namizədlər Daxili Qoşunların Baş İdarəsində yaradılmış fiziki hazırlıq, hərbi-həkim və mandat komissiyalarında Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – 6 dəfə, qaçış – 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə, qolların üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi – 18 dəfə, gövdənin döşəmədən qaldırılıb-endirilməsi – 18 dəfə).

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanlarında iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasına göndərilir.

İmtahanlar test üsulu ilə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə DİM-in internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunmuş şəxslər dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. Məktəbdə tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

Məktəbi müvəffəqiyyətlə bitirmiş məzunlara "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası və "leytenant" hərbi rütbəsi verilərək, onlar Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, 2020-ci ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də Daxili Qoşunlarda xidmətə qəbul üçün müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul edilmirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul üçün namizədlər Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinə (ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Q.Musabəyov küçəsi 4) aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);

- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında arayış və ya tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);

- yaşayış yeri üzrə tibb müəssisəsindən sağlamlıq haqqında arayış;

- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);

- oxuduğu təhsil müəssisəsi tərəfindən verilmiş xasiyyətnamə;

- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Məktəbə namizədlərin ərizə və sənədlərinin qəbulu 2020-ci il mart ayının 1-dən aprel ayının 10-dək (bazar və bayram günləri istisna olmaqla) hər gün saat 10:00-dan 17:00-dək həyata keçiriləcəkdir.

Məlumat üçün əlaqə telefonları: (012)-590-65-07, (012)-560-27-00.

HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

Pakistan yaxın aylarda 12 ədəd JF-17B döyüş təyyarəsi əldə edəcək

Pakistan Hərbi Hava Qüvvələri yaxın aylarda sifariş verilən 26 ədəd JF-17B "Thunder" döyüş təyyarələrinin 12-sini əldə edəcək. Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Pakistan Müdafiə Nazirliyinin rəsmisi məlumat verib.

Qeyd olunur ki, təyyarələrin 8-i Pakistanda, qalan 4-ü Çində istehsal olunub. Bildirilir ki, 2021-ci ilə qədər 26 təyyarənin hamısı Pakistana təhvil veriləcək.

Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı mayor Hüseyn Əliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sağlamlıq

Orqanik qidaların üstünlüyü

Orqanik qidalar yetişdirilməsində süni gübrələrin, həşəratlara qarşı işlədilən dərmanların, hormonların, antibiotiklərin, boyaların, kimyəvi maddələrin və qablaşdırılma vasitələrinin istifadə olunmadığı məhsullardır. Onlar üzvi əkinçiliyin məhsuludur, bitki və heyvan mənşəlidir.

AZƏRTAC xəbər verir ki, orqanik qidaların istehsalında hormon və gübrə istifadəsi az olduğu üçün torpağın mineral baxımdan daha zəngin olması şərtdir, nəticədə həmin məhsullar mineralı az olan və gübrəli torpaqlarda yetişən ərzaqlardan daha dadlı olur.

Orqanik qidalardan istifadə bədənin xərçəngə qarşı müqavimətini artırır, ürəyin sağlamlığını qoruyur, bir çox infeksiyanın meydana gəlməsinin, damar tutulmalarının qarşısını alır, yaşlanmanı yubadır, hüceyrələrin və toxumaların quruluşunu qoruyur.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000